**Borclu vergi ödəyiciləri cəzalandırılır**

Bakı Şəhər Vergilər Departamentinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən bir neçə vergi ödəyicisinin əmlakı siyahıya alınmışdır.
Vergi əməkdaşları tərəfindən Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 47 ünvanında yerləşən «Aranlı» İstehsalat təchizat və kommersiya firmasına məxsus (VÖEN:1500992551) «Uşaq aləmi» mağazasında aparılmış kameral vergi yoxlaması nəticəsində əsas borc 11 min 313,41 manat, faiz və maliyyə sanksiyası borcu 3 min 743,48 manat olmaqla cəmi 15 min 56,89 manat məbləğində vergi borcunun olduğu müəyyənləşdirilmişdir. 2012-ci il yanvar ayının 17-də vergi ödəyicisinə borcun ödənilməsinə dair bildiriş göndərilmişdir. Ödəniş yerinə yetirilmədiyinə görə, obyektin əmlakının siyahıya alınması haqqında qərar çıxarılmışdır. Vergi orqanları əməkdaşları tərəfindən mağazada nağd pul vəsaiti aşkar olunmadığından 21 min 447 manat məbləğində uşaq geyimləri, oyuncaqlar və müxtəlif əşyalar qanunla müəyyənləşdirilmiş qaydada siyahıya alınmışdır.
Vergi əməkdaşları daha bir obyektdə - Əli Mirzə oğlu Mirzəyevə məxsus (VÖEN:1401702592) ətriyyat mağazasında da əmlakın siyahıya alınmasını həyata keçirmişlər. Yoxlama nəticəsində mağazada 4 min 394,66 manat vergi borcunun olduğu müəyyən edilmiş, ötən ilin dekabr ayının 29-da vergi ödəyicisinə borcun ödənilməsinə dair bildiriş göndərilmişdir. Borcun ödənilməsi yerinə yetirilmədiyinə görə, obyektdə əmlakın siyahıya alınması haqqında qərar çıxarılmışdır. Ə.Mirzəyev əmlakın siyahıya alınması zamanı vergi borcunun 1000 manat məbləğində hissəsini yerindəcə ödəmiş, qalan hissə müqabilində isə mağazadakı müxtəlif kosmetika və ətriyyat məhsulları siyahıya alınmışdır.
Oxşar səbəblər üzündən Cəmil Faiq oğlu Hüseynova məxsus (VÖEN:1401154332) «Camel Aktive» geyim mağazasında da (ünvan: Səbail rayonu, Ü.Hacıbəyov küçəsi, 16) 4 min 528,67 manat məbləğində vergi borcunun qarşılığı olaraq əmlakın siyahıya alınması həyata keçirilmişdir. Tədbir zamanı C. Hüseynov vergi borcunun 2 min manat məbləğində hissəsini yerindəcə ödəmiş, qalan hissə müqabilində isə mağazadakı geyim məmulatları siyahıya alınmışdır.